# Nügədi paxlavası, Buduq qovurması, Gültəpə halvası

**Dünya yaranandan bəri torpaq üzərində qurulan, addım-addım Yer üzünü dolaşan adətlərdən biri də baharın gəlişi ilə keçirilən tədbirlərdir. Bu tədbirlər dünyamızın gözəllik payıdır desək, səhv etmərik.**

Etiraf edək ki, təbiətin oyanışı, bülbüllərin avazı, qaranquş sevdası və digərləri qəlbimizin bahar sevgisiylə qoşalaşdığından ona bəslədiyimiz məhəbbət min il keçsə belə, azalmır ki, azalmır. Çünki Novruz yaranışın, şəffaflığın, bərabərliyin, birliyin və sabaha açılan qapının açarıdır.

Multikultural dəyərlərə söykənən ölkəmizdə yaşayan bütün xalqlar baharı müxtəlif adətlərlə qarşılasalar da, onların kökünü Azərbaycan ruhu birləşdirir. Şabranda da Novruz əsrlərdən gələn adətlərlə qeyd edilir. Ərazidə yaşayan azərbaycanlılarla birlikdə ləzgi, tat, Mesxeti türkləri, dağlılar martın əvvəlində bayrama hazırlıqlara başlayırlar. Qohumlar arasında bir-birinə xəbər göndərib hər çərşənbənin ertəsi bir yerə yığışırlar. Hər kənddə bir adamı başçı seçərək ona tapşırıqlar verirlər. O adam kənddə hamının qapısını döyüb pul yığır və həmin pula buğda alınır. Hər evdə həmin buğdadan səməni qoyulur. Tatlar baharın gəlişini 3 gün qeyd edirlər. Son çərşənbədə qərara alınır ki, məşhur səməni horrasını bu dəfə filankəs bişirsin. Bayram axşamı hamı səmənisini həmin adamın həyətinə gətirir. Qonşular səmənilərı toxmacla əzir və iri qazanlarda horra bişirirlər. Horra 12-14 saat ərzində hazır olur. Səhər erkən kənd uşaqları onu ev-ev paylayırlar. Bayram axşamı isə hamı ocaq başında bir yerə yığışır və sübhədək deyib gülür, oynayırlar.




Qubada da Novruz mənzərəsi maraqlıdır. Rayonun 160 minə yaxın əhalisinin tərkibində etnik qrupların, azsaylı xalqların nümayəndələri az deyil. Qubada bu azlıqlar bir ocaq başına yığışan mehriban ailəni xatırladır. Burada ocaq istisi qəlb sevgisi ilə birləşir.

Qubada deyirlər ki, bahar özünü yetirməmiş yeddi çölün, düzün, bağın və dağın göyərtisindən göy qutabı yemək lazımdır. Əgər şirin ağızla təbiətin göyərtisi birləşərsə, deməк, bahar qapının ağzındadır. Axır çərşənbədə isə hamı sübhün al şəfəqində axar su üstündən keçər, dua edərlər. Çaydan götürdükləri suyu qapı ağzına, bağa-bostana səpərlər ki, ruziləri bol olsun. Bayram axşamı kəndlərdən musiqi sədaları hər tərəfi bürüyər. Nügədi kəndinin cavanları yaxınlıqdakı Bəhyə dağına qalxar, əvvəlcədən hazırladıqları tonqalları sıra ilə qalarlar.

Quba mətbəxi bayram günlərində xüsusilə seçilər. Nügədi paxlavası, Buduq qovurması, yaxud cücə-plovu, Susay aşı, Gültəpə halvası və başqa mətbəx nemətləri Qubanı daha da ətirləndirər.

Qırmızı qəsəbədə yaşayan yəhudilər də baharı coşqu ilə qarşılayarlar. Bayram axşamı tonqal başında hamıya şəkərbura, qoğal paylanar. Bayramda insanlar yanaşı oturarlar. Birliyə və bütövlüyə əbədi yol alan insanları Novruz məhəbbəti birləşdirər. Baharın 13-cü günü Qudyalçayın sahilində hərə bir niyyətlə gətirdiyi səmənini suya atar və qəlbində niyyət tutar.

Qusarda bahara hazırlıq Boz ay başlayandan görülər. Böyüklü-kiçikli hamı odun yığmağa başlayar. Novruza ləzgi dilində "Yaransuvar", yəni "yeni gün" deyirlər. Çərşənbə axşamlarından öncə mis qaba su tökübsaxlayar və bayram günü su dolu qabı 7 evə apararlar. Əgər evlərdəki insanlara su çatarsa, arzular yerinə yetmiş olar.

Bayramda qusarlıların evləri qonaqlı-qaralı olur. Bir də bu günlər kimə elçi getsələr, gələcəkdə doğulan uşağa Novruz və Bahar adlarını verərlər.

Ömrün günləri bənövşə ətirli baharla tamam dəyişir. Çünki bahar göylərin yerə nemət payıdır. Beləcə bu günlər Yer üzündən bir bahar da keçir. Qarşıda isə hələ neçə baharımız var.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

Azərbaycan. - 2025.- 19 mart (№ 60).- S.14